# İslamda İnsan Həyatının Dəyəri

**Nəsimi Piriyev[1]**

## Abstrakt

Həyat və yaşam haqqı, hüququn əsasını təşkil edən və bu mövzuda heç bir müzakirəni qəbul etməyən, hər bir insanın əsaslı hüquqlarındandır. Yaşam hüququ, mənfi və müsbət olmaqla iki xüsusiyyətə malikdir. İslam dini baxımından insan həyatı müqəddəs və toxunulmazdır. Müsəlman həm öz həyatını, həm də digər insanların həyatını uca dəyər kimi qəbul etməlidir. Heç bir qanuni əsas olmadan insanı həyatdan məhrum etmək bütün bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilir. Son illər Qərb ictimai şüurunda İslamın terrorla eyniləşdirilməsi, intiharçıların cənnətə çatmaq məqsədi ilə bu əməlləri törətdikləri barədə yanlış təsəvvürlər formalaşdırılır. Kütləvi informasiya vasitələri "cihad", "şəhid" və digər İslam terminlərini təhrif olunmuş mənada təqdim edir, bu anlayışların həqiqi mahiyyətini izah etmədən terror aktlarını İslamla əlaqələndirir. Halbuki İslam terrorun bütün formalarını qəti şəkildə qadağan edir, dialoq və sülhü təşviq edir, mənəvi dəyərlərin və vətənin müdafiəsinə çağırır.

**Açar sözlər:** İslam, sülh, əmin-amanlıq, vəhdət, terror, dialoq

1 -İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran / Nesimipiriyev.az@gmail.com

## Giriş

Uca Allah Qurani-Kərimdə buyurur: *"Məni yad etməkdən üz döndərən kəs üçün isə mütləq sıxıntılı bir həyat olacaqdır və Qiyamət günü onu məhşərə kor olaraq gətirərik."* (Taha, 124). Bu ayə insanın Allahdan uzaqlaşdıqda məruz qaldığı mənəvi boşluğu və çətinliyi ifadə edir. Hər bir insan həyatında prioritetlərini müəyyənləşdirməli və verdiyi qərarlın gələcək həyatına təsirini dərk etməlidir.

İslam baxışında həyat, bütövlükdə Allahın insana olan rəhmət nişanəsidir**:** *"Sən Allahın rəhmətinin izlərinə bax ki, yeri öldükdən sonra necə dirildir"* (Rum, 50) Həyat, insan üçün Allah nəfəsidir: *"Mən ona biçim verib öz ruhumdan üfürdüyüm zaman, siz ona səcdə edin".* (Hicr, 29)

İslam dini təkcə ibadət və ayinlərdən ibarət deyil, eyni zamanda insanın dünya və axirət səadətini təmin edən hərtərəfli həyat nizamıdır. Allah-Taala insanı həm yoxsulluq, həm də zənginliklə sınağa çəkir və bu sınaqların hər birində haqq yolda olanlara yardım edir. Həqiqi mömin çətinliklər qarşısında səbir, nemətlər qarşısında şükür edərək imanının dərinliyini nümayiş etdirir.

## İslamın Əsas Xüsusiyyətləri və Cəmiyyətə Təsiri

İslam dini barədə şəriət qanunları 1400 ildən artıqdır ki, bəşəriyyətə işıq saçır. İslama xas olan keyfiyyətlər cəmiyyət tərəfindən düzgün anlaşıldıqda və tətbiq edildikdə, dinin aşağıdakı funksiyaları ön plana çıxır:

### 1. Hidayət və Məna Mənbəyi

İslam dini insanlığı doğru yola istiqamətləndirən, həyatın mənasını izah edən sülh və təqva yoludur. *"Şübhəsiz ki, Allah təqvalı olanlarla və yaxşı işlər görən kəslərlədir."* (Nəhl, 128)

### 2. Ümid və Dayaq

İnsanlar çətin anlarında, kədər və narahatlıq üz verdikdə dinə üz tuturlar. Möminin Peyğəmbərə (s) olan məhəbbəti onun daxili aləmini zənginləşdirir, davranışlarını gözəlləşdirir.

### 3. Təbliğ və Maarifləndirmə

Müsəlman öz dinini öyrəndikdən sonra onu başqalarına çatdırmaq iqtidarında olur. Çətinliklərə, istehza və təhqirlərə baxmayaraq, İslamın ədalətli və xeyirxah din olduğunu bildirir.

### 4. Mənəvi Nəzarət

İslam halal-haram məsələlərində dindarın hərəkətlərinə nəzarət edir. *"Onların daxil olacaqları əbədi bağların (ağaclarının) altından çaylar axar. Orada onlar üçün istədikləri hər bir şey vardır. Allah təqvalıları belə* mükafatlandırır.*"* (Nəhl, 31)

### 5. Birlik və Həmrəylik

İnsanlar Uca Yaradanın *"Parçalanmayın"* əmrinə əməl etdikdə, İslam dini xalqların, millətlərin birləşməsinə, təhsilin inkişafına və dövlətçiliyin möhkəmlənməsinə xidmət edir.

### 6. Mədəniyyət və Sivilizasiya

İslam ədəbiyyatı, incəsənəti və memarlığı bu günə qədər bəşəriyyəti heyran etməkdə davam edir. Bir çox elmlər İslamın yaranmasından etibarən inkişaf tapmışdır.

### 7. İctimai Asayiş və Ailə Dəyərləri

İslam ictimai asayişi gücləndirməyə, ailə ənənələrini və həyat qanunlarını qorumağa xidmət edir. Müsəlmanlar bir-birinə qarşı mərhəmətli olmalı, qayğı və məhəbbət göstərməli, ətrafdakılara qarşı təmənnasız xeyirxahlıq etməlidirlər.

## İslam və Terror: Kökündən Yanlış Eyniləşdirmə

Bir dinin adı altında fəaliyyət göstərən bəzi qruplar həmin dini səhv anlamış və yanlış tətbiq etmiş ola bilərlər. Bu səbəbdən həmin insanlara baxaraq din haqqında ümumi hökm çıxarmaq düzgün deyil. Müasir dövrdə gənclərin İslami dəyərlərə yönəlməsi sevindirici hal olsa da, bəzi radikal qruplar bu prosesdən sui-istifadə edərək gəncləri terrora və digər çirkin əməllərə sövq etmişlər.

Allah-Təala buyurur: *"Beləliklə, əgər sən(in dəvətin)ə cavab verməsələr, bil ki, onlar öz (nəfsi) istəklərinə uymuşlar. Allahın hidayəti olmadan, öz (nəfsi) istəklərinə uyandan daha çox azğın kim ola bilər?! Həqiqətən, Allah zalım tayfanı doğru yola yönəltməz."* (Qasas, 50)

Radikal qruplar və onların cahil rəhbərləri İslam gənclərini dində həddi aşmağa və İslamla əlaqəsi olmayan əməllərə sövq edirlər. Allah-Təala buyurur: *"De: «Ey kitab əhli, öz dininizdə haqsız yerə ifrata varmayın... və nəfsi istəklərə tabe olmayın»."* (Maidə, 77)

Dində həddi aşaraq gəncləri radikallığa və terrora cəlb edənləri şeytan aldatmış, onları doğru yoldan uzaqlaşdıraraq çirkin əməllərini gözəl göstərmişdir. Uca Allah buyurur: *"Pis əməlləri onun üçün zinətlənmiş olan və onları gözəl görən bir kəs, (həqiqəti görən mömin kimidirmi? Əsla belə deyildir)."* (Fatir, 8)

**İslamın Rəhmət və Mərhəmət Dini Olması**

İslam dini həmişə fitnə-fəsadın əleyhinə olmuş və onunla mübarizə aparmışdır. Çünki İslam rəhmət və mərhəmət dinidir. Uca Allah sonuncu elçisi Məhəmmədi (s) insanlara rəhmət olaraq göndərdiyini bildirmişdir.

Allah-Təala buyurur: *"Ramazan ayı insanların bələdçisi, aşkar hidayət dəlillərinə malik və (haqq ilə batili bir-birindən) ayıran Quranın nazil olduğu aydır... Allah sizin üçün asanlıq istəyir, sizin üçün çətinlik istəmir."* (Bəqərə, 185)

İslam dini insanlara həmişə orta yolu seçməyi tövsiyə etmiş, ifrat və təfritdən çəkindirmişdir. *"(Sizin üçün müstəqil bir qiblə təyin etdiyimiz kimi) sizi orta bir ümmət etdik..."* (Bəqərə, 143)

Hətta yemək-içməkdə belə həddi aşmaq qadağan edilmişdir: *"Ey Adəm övladları, hər namaz vaxtı və hər bir məsciddə bəzək və zinətlərinizi götürün, yeyin-için, lakin israf etməyin ki, O, israf edənləri sevmir."* (Əraf, 31)

## İslamda İnsan Həyatının Müqəddəsliyi

Nahaq yerə adam öldürməyin böyük günah olması barədə Quran və hədislərdə çoxsaylı dəlillər mövcuddur. Qurani-Kərimdə buyurulur: *"Kim bir mömini qəsdən öldürsə, onun cəzası Cəhənnəmdir ki, orada əbədi qalacaqdır. Həmçinin Allah ona qəzəb edər, onu Öz rəhmətindən uzaqlaşdırar və onun üçün böyük bir əzab hazırlayar."* (Nisa, 93)

İslam şəriətinə görə müsəlmanın qanı, malı və namusu toxunulmazdır. Peyğəmbərimiz (s) Vədəül-hüccə (Vida həccində) buyurmuşdur: *"Ey insanlar! Müsəlmanın qanını axıtmaq halal deyildir. Həmçinin malını da aparmaq caiz deyildir, yalnız o zaman caiz olar ki, özü razı olsun. Belə isə özünüzə zülm etməyin, məndən sonra küfrə, kafirliyə qayıtmayın."*

## İntiharın Qəti Qadağan Edilməsi

İslam dinində intihar qəti şəkildə qadağandır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə, ən aşağı intihar səviyyəsi İslam ölkələrində qeydə alınmışdır. İslam nöqteyi-nəzərindən həyat bir imtahandır və bu imtahandan uğurla keçən şəxs axirət dünyasının təməlini qoyur.

Qurani-Kərimdə buyurulur: *"Ey iman gətirənlər, qarşılıqlı razılıq əsasında olan ticarət istisna olmaqla öz aranızda bir-birinizin mallarını haqsız yerə yeməyin. İntihar etməyin, bir-birinizi öldürməyin və özünüzü günah təhlükəsinə atmayın. Həqiqətən Allah sizə qarşı həmişə mehribandır."* (Nisa, 29)

İmam Baqir (ə) buyurur: *"Mömin hər bəlaya giriftar olar və hər ölümlə ölər, ancaq intihar etməz."* İmam Sadiq (ə) isə buyurur: *"Kim bilərəkdən özünü öldürsə, həmişə Cəhənnəm odunda olacaq."*

## İslamın Dialoq və Sülhə Dəvəti

İslam ağıl və məntiq dinidir. O, öz ardıcıllarını həmişə sevgiyə, düşüncə və təfəkkürə dəvət edir, insaniyyətə qarşı olan hərəkətlərdən çəkindirir. Qurani-Kərimdə bu həqiqət

açıqlanmışdır: *"(İnsanları) Rəbbinin yoluna hikmətli məntiq, qane edən dəlillər və gözəl, oyadıcı və ibrətamiz nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et."* (Nəhl, 125)

## Mübahilə Hadisəsi: Dialoqun Ən Gözəl Nümunəsi

Hicrətin 10-cu ilində Nəcran xristianları ilə baş verən "Mübahilə" hadisəsi İslamın dialoqa verdiyi əhəmiyyətin ən parlaq nümunəsidir. Bu hadisə barədə nazil olan ayədə buyurulur: *"Buna görə də sənə elm gəldikdən sonra, onun barəsində (İsa Məsih haqqında) səninlə mübahisə edən kəsə de: «Gəlin biz öz oğullarımızı, siz öz oğullarınızı, biz öz qadınlarımızı, siz öz qadınlarınızı, biz özümüzü, siz də özünüzü çağıraq, sonra bir-birimizə nifrin edək, beləliklə Allahın lənətini yalançılara yağdıraq»."* (Ali-İmran, 61)

Peyğəmbər (s) bu hadisədə İmam Həsən, İmam Hüseyn, Fatimə (ə) və Əlini (ə) özü ilə apararaq İslamın haqq olduğunu sübut etdi. Xristianlar bu mənəviyyat qarşısında mübahilədən imtina edərək sülh bağladılar.

## Terrorun Qəti Şəkildə Pislənməsi

Terrorçuların əsas məqsədi qeyri-hərbi, mülki hədəflərə qarşı siyasi məqsədlə güc tətbiq etməkdir. Terrorun hədəfləri tamamilə günahsız dinc insanlardır. İman əhli olan möminlər üçün günahsız insanları öldürmək Allaha qarşı çıxmaqdır.

Allah-Təala buyurur: *"Bu səbəbdən İsrail övladlarına yazdıq və qərara aldıq ki, kim can qisası haqqına malik olmadan və ya yer üzündə fitnə-fəsad törətməmiş bir insanı öldürsə, sanki bütün insanları öldürmüşdür və kim bir insana həyat bəxş etsə, sanki bütün insanları diriltmişdir."* (Maidə, 32)

Günahsız insanlara qarşı terror aktları hazırlamaq və həyata keçirmək İslama tamamilə ziddir. Müsəlmanlar belə əməllərin qarşısını almaqla yer üzündə fitnə-fəsadı aradan qaldırmağa və bütün insanlara əmin-amanlıq gətirməyə görə məsuliyyət daşıyırlar.

**Sələfilik-Vəhabilik və Həqiqi İslam Arasındakı Fərq**

Gerçək İslamdan uzaqlaşıb xürafata əsaslanan bir din anlayışının mənimsənilməsi müsəlmanların bir hissəsini elm, sənət və azadlıqdan uzaqlaşdırmış, eyni zamanda radikallaşdırmışdır. Sələfi-vəhabi cərəyanı dünyada milyonlarla insanın doğru zənn etdiyi yanlış dini təbliğ edir.

Bu problemin həlli yalnız İslam aləminin xürafələrə əsaslanan qaynaqları tamamilə kənara qoyub Qurani-Kərimə, Peyğəmbər (s) sünnəsinə və Əhli-beyt (ə) hədislərinə yönəlməsi ilə mümkündür. *"Hər bir itaətsiz batil qüvvədən və Allahdan qeyri məbuddan ona ibadət etməmək üçün çəkinmiş və Allaha tərəf qayıtmış kəslərə müjdə olsun! Sözlərə qulaq asıb onların ən yaxşısına tabe olan kəslərə! Allahın hidayət etdiyi kəslər onlardır və onlardır əsl ağıl sahibləri!"* (Zumər, 17-18)

**İslamda Sosial Yardım və Qardaşlıq**

İslam dini insanları bir-birinə yardım etməyə, ehtiyacı olanların əlindən tutmağa çağırır. Həzrət Peyğəmbər (s) buyurur: *"Əgər bir şəxs sübhü açdı və iradəsi ehtiyaclı müsəlmanların ehtiyaclarını təmin etməyə sərf etmək olmadısa, həmin şəxs müsəlman deyil."*

Hətta qeyri-müsəlmanlara kömək etmək də tövsiyə edilir: *"Əgər yaxında və yaxud dünyanın ən uzaq nöqtəsində məzlum və məhrum bir şəxs müsəlmanları köməyə çağırırsa və İslam cəmiyyəti ona kömək etməyə tələsmirsə, belə cəmiyyət İslam ruhuna sahib deyil."*

İslamın mərhəməti təkcə insanları deyil, heyvanları da əhatə edir. İmam Baqir (ə) buyurur: *"Allah-Təala susuz və yanıqlı ciyəri soyutmaq və rahatlaşdırmağı çox sevir."* İmam Sadiq (ə) isə buyurmuşdur: *"Ən fəzilətli sədəqə susuz ciyəri rahatlaşdırmaqdır."*

**Uşaq Tərbiyəsi və İslami Dəyərlərin Öyrədilməsi**

Uşaqlara dini bilikləri öyrətmək, Allahı, Onun elçilərini tanıtmaq, halal və haram barədə məlumat vermək valideynlərin əsas vəzifəsidir. Uşaq bu dəyərləri yaxşı mənimsədikdə, onu yoldan çıxarmaq çətin olar.

Valideynlər uşaqlarında öz dininə qarşı qürur və sevinc hissi tərbiyə etməlidirlər. Peyğəmbərlərin həyatı, onların nəcibliyi və gözəl davranışları uşaqlara izah edilməlidir. Həmçinin Əhli-beyt (ə), səhabələr, alimlər və möminlər barədə məlumat verilməlidir.

Uşaqlara Quran oxumaq və surələri əzbərləmək öyrədilməli, namaz qılmaq, dua və zikrlər etmək aşılanmalıdır. Kiçik yaşlarından Qurana məhəbbət aşılanan uşaq böyüdükdə də bu müqəddəs kitabdan ayrılmaz.

**Milli Birlik və Təhlükəsizlik İslami Dəyər Kimi**

İslamda milli vəhdət və birlik ən mühüm prinsiplərdəndir. Allah-Təala buyurur: *"Və hamılıqla Allahın ipindən möhkəm yapışın və parçalanmayın. Allahın sizin barənizdə bir-birinizlə düşmən ikən qəlbləriniz arasında ülfət yaratdığı zamandakı nemətini xatırlayın ki, Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz."* (Ali-İmran, 103)

Əmirəlmöminin Əli (ə) buyurur: *"Siz Allahın kəlamına söykənsəniz, heç bir çirkinlik sizin ixtilafınıza səbəb ola bilməz. Yadlar aranızda parçalanma yaradır və sizə hakim olurlarsa, yalnız öz aranızda olan fəsadlardan istifadə edirlər. Qəlbləriniz güclü və möhkəm olarsa, İslam quruluşunda bölünməyə heç bir zaman şərait yarana bilməz."*

İslam nöqteyi-nəzərindən təhlükəsizlik sağlam həyat üçün ən əsas şərtdir. Həzrəti İbrahim (ə) Kəbəni tikərkən Allahdan ilk olaraq təhlükəsizlik diləmişdir: *"Və yada sal o zamanı ki, İbrahim dedi: «Ey Rəbbim, bu şəhəri təhlükəsiz hərəm et və məni və oğlanlarımı bütlərə ibadət etməkdən uzaq saxla!»"* (İbrahim, 35) Bu səbəbdən İslam dini ictimai təhlükəsizliyi pozanlar üçün ən ağır cəzaları nəzərdə tutmuşdur (Maidə, 33).

**Nəticə**

İslam dini hər bir insanın canını, malını, namusunu, şərəfini və azadlığını qorumuş, bunların toxunulmazlığını bəyan etmişdir.

Həm fərdin, həm də cəmiyyətin asayişi və təhlükəsizliyi İslamda müqəddəs dəyər kimi qəbul edilir.

İslamı ümumbəşəri din edən ən mühüm xüsusiyyətlərdən biri onun Peyğəmbərinin (s) bütün aləmlərə rəhmət olaraq göndərilməsidir. İslam demokratiya, hüquq, ədalət, bərabərlik və azadlıq ideyalarını tərənnüm etmiş, din və vicdan azadlığının təminatçısı olmuşdur.

İslam əxlaqı sistemi insanı yaxşılıq etməyə və pislikdən çəkindirməyə çağıran bir həyat tərzi təqdim edir. İslamın elan etdiyi hüquq və vəzifələr insan hüquqlarının ən qədim bəyannaməsidir.

Qurani-Kərimə görə xoşbəxt və firavan cəmiyyət üç əsas xüsusiyyət üzərində qurulur: təhlükəsizlik, həyata ümid və iqtisadi inkişaf. Bu üç amil bir-biri ilə sıx bağlıdır və biri olmadan digərləri tam dəyərini itirir.

İnsan dörd əsas sərmayəyə malikdir: can, mal, namus və heysiyyət. Quran və hədislərə əsasən, insanın heysiyyəti və ləyaqəti bəzi hallarda malından və canından da üstündür. İslam hər bir cəmiyyətdə bu dəyərlərin qorunmasını tələb edir.

1400 il bundan əvvəl İslam köləlik məsələsinə toxunmuş, qulların azadlığa buraxılmasını təşviq etmişdir. İslam bütün insanları azad və bərabər hesab edir, onların təhqir olunmasına qarşı çıxır.

Nəhayət, İslam nöqteyi-nəzərindən insanın mənəvi həyatı düzəlmədən, heç bir maddi amil sülh və sosial təminatın qorunmasında tam rol oynaya bilməz. Həqiqi sülh və əmin-amanlıq, insanın Allahla, özü ilə və cəmiyyətlə barışıq içində olması ilə mümkündür.

**Ədəbiyyat**

Qurani-Kərim – A. Mehdiyevin tərcüməsi, Bakı, 2009

Şeyx Əhməd Nəraqi, "Məracüs-Səadə" (Səadət Zirvəsində), Bakı, 2012

Ayətullah Seyyid Əbdülhüseyn Dəstğeyb, "Böyük Günahlar" (1-ci cild), Dinin Fəxri Nəşriyyatı, 2000

Ayətullah Cavad Amoli, "İnsanın Dindən İntizarı", M.O.U.

Əliəkbər Babazadə, "İslamda Evlənmə və Ailə Hüququ"

Məhəmmədi Reyşəhri, "Mizanül-Hikmət" (xülasə), Bakı, 2009

Əllamə Misbah Yəzdi, "Quranda Əxlaq", Bakı, 2011

Əbdülhəkim Süleymani, "İslamda İnsan Haqları", M.O.U.

İnternet materialları (müvafiq İslami mənbələr)